**HEYDƏR ƏLİYEV**

# ŞƏXSİ MÖVQE

**"AZƏRBAYCAN"**
**nəşriyyatı**

**BAKI**
**1994**

# Mündəricat

**1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda Heydər Əliyevin çıxışı (21 yanvar 1990-cı il)**

**Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında millət vəkili Heydər Əliyevin çıxışı (5 fevral 1991-çi il)**

**Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxışı (7 mart 1991-ci il)**

**SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına müraciəti (19 iyul 1991-ci il)**

**Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxışı (29 avqust 1991-ci il)**

## 1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda Heydər Əliyevin çıxışı (21 yanvar 1990-cı il)

Əziz həmvətənlərim, xanımlar və cənablar!

Bildiyiniz kimi, uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmiş, Sov. İKP MK Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm.

Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də, ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi.

Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.

Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq, iş təkcə bununla bitmir.

İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir.

Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur.

Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan

xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər.

Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar. Yeri gəlmişkən deyim ki, ölənlər arasında hərbi qulluqçuların olması haqqında da məlumatlar daxil olur. Sual olunur: ölkənin ali dövlət, partiya rəhbərliyinin səhv qərarı ucundan, olmayan qiyamı yatırtmaq adı ilə Azərbaycana göndərilmiş rus gənclərinin günahı nədir?

Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov, öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır.

Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır.

**21 yanvar 1990-cı il, Moskva**

**Əliyev Heydər. Şəxsi mövqe. – B. - 1994. - S. 3-6.**

**Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasında millət vəkili Heydər Əliyevin çıxışı (5 fevral 1991-çi il)**

Hörmətli xalq deputatları!

Əziz həmvətənlər!

Azərbaycan Respublikasının xalq deputatı seçilməyimi böyük etimad kimi qəbul edirəm, seçicilərimə, mənə həmrəyliklərini bildirənlərin hamısına öz dərin minnətdarlığımı bildirirəm.

Mənim Azərbaycana qayıtmağım, xalq deputatı seçilməyim barədə cürbəcür şayiələr yayılıb. Bunlara cavab olaraq bəyan edirəm ki, doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq, kimdənsə qisas almaq üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm. Məni bir azərbaycanlı kimi bu hüquqlardan heç kəs məhrum edə bilməz.

Sovet İttifaqında, Azərbaycanda mövcud olan vəziyyət haqqında bəzi fikirlərimi və təkliflərimi Ali Məclisə çatdırmaq istəyirəm.

**Birinci:** Ölkə, sovet cəmiyyəti, dövlət üsul-idarəsi artıq bir neçə ildir ki, siyasi və iqtisadi böhran içindədir. Millətlərarası münasibətlər gərginləşib. Sovet İttifaqı dağılmaqdadır.

Bunların səbəbləri: Şübhəsiz ki, əmələ gəlmiş vəziyyətə keçmişin ayrı-ayrı mərhələlərində buraxılmış səhvlərin təsirini inkar etmək olmaz. Fəqət əsas səbəblər «perestroyka» adlandırdığımız dövrdə həyatımızın bütün sahələrində buraxılmış ciddi, kobud və bağışlanmaz səhvlərdir.

Təəssüf ki, bunların üstü örtülüb-basdırılır, rəsmi dairələr və kütləvi informasiya orqanları ancaq keçmişi atəşə tuturlar.

Tam qətiyyətlə demək olar ki, 1985-ci ildə ölkəmizdə başlanmış dəyişikliklərin elmi, siyasi və iqtisadi əsaslarla işlənib hazırlanmış uzunmüddətli strategiyası olmamış və tələm-tələsik şəkildə həyata keçirilmiş, bəzən bir-birinə zidd olan tədbirlər təbiidir ki, müsbət nəticələr verməmişdir.

Milli siyasət sahəsində buraxılmış böyük səhvlər ölkənin bir çox respublikalarında faciəli vəziyyət yaratmışdır. Alma-Atada, Tbilisidə, Fərqanədə, Bakıda, Novı Uzendə, Oşda, Baltikyanı respublikalarda baş vermiş hadisələr müttəfiq respubl1İkaların hüquqlarının tapdalanmasının, mərkəzin imperiya siyasətinin nəticəsidir.

Əvvəlki illərdə özünə müəyyən qədər yol açmış demokratiya, aşkarlıq, siyasi plüralizm artıq məhdudlaşdırılır, ölkədə diktatura üsul-idarəsi tətbiq olunur.

Bunlar hamısı cəmiyyəti fəlakət səddinə gətirib çıxarmışdır.

Sovet dövlətinin xarici siyasəti də çox qüsurludur.

Yaranmış vəziyyətin günahları hakimiyyətdə olan Kommunist Partiyasının Mərkəzi Komitəsi, partiya və dövlət hakimiyyətini ələ keçirmiş Qorbaçovdur. Son beş ildə Qorbaçov xalqa çox vədlər verib, lakin onların heç birini həyata keçirə bilməyib. Söz ilə əməl arasında boşluq, siyasi rəhbərlik ilə xalq arasında uçurum yaranıb. Xalqın rəhbərliyə inamsızlığı və gələcəyə ümidsizliyi artıb, kommunist partiyası nüfuzdan düşüb.

**İkinci:** Ölkədə yaranmış vəziyyət eyni ilə Azərbaycanda da hökm sürür. Respublikanın rəhbərliyi həmişə olduğu kimi, Mərkəzin xəttini Azərbaycanda kor-koranə tətbiq edir və bütün göstərişlərini həyata keçirməyə cəhd göstərir. Nəticələr göz qabağındadır. Azərbaycanda vəziyyət daha da ağır və dözülməzdir. Bu isə erməni millətçiləri tərəfindən ortaya atılmış Dağlıq Qarabağ məsələsi ilə əlaqədardır. Üç ildən artıqdır ki, respublikamız, Azərbaycan xalqı Ermənistan tərəfindən ardı-arası kəsilməyən təcavüzlərə məruz qalır. Nəticədə Azərbaycanın ərazi bütövlüyü pozulub, Dağlıq Qarabağ Muxtar Vilayəti, Şaumyan rayonu (yaxşı ki, o bu gün ləğv olundu), Çaykənd kəndi faktiki olaraq Azərbaycanın dövlət idarə tabeliyindən çıxıb, Ermənistanla geniş siyasi-iqtisadi və mənəvi əlaqələr həyata keçirir. Şərur rayonunun Kərki kəndi isə Ermənistan tərəfindən tamamilə işğal olunub. Erməni silahlı birləşmələri mütəmadi olaraq Ermənistanla sərhəd rayonlarımıza basqınlar edir, insanlar həlak olur, qan tökülür, evlər yandırılır, kəndlər dağıdılır.

Uzun sürən erməni təcavüzünün qarşısını almaq üçün İttifaq dövləti, birinci növbədə şəxsən Qorbaçov və respublika rəhbərliyi tərəfindən qəti tədbirlər görülməmişdir.

Dağlıq Qarabağ Muxtar Vilayəti 3 ildir ki, Azərbaycan üçün böyük bəla olub. Bu gün sessiyada bu məsələnin müzakirəsini ürəkdən alqışlayıram. Çünki sessiyadan qabaq bu məsələ ilə maraqlanarkən mənə

məlum oldu ki, üç il müddətində Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV-də vəziyyət haqqında ətraflı, dərin, lazımi səviyyədə məsələ müzakirə olunmayıb, səmərəli tədbirlər görülməyib. Bu gün məsələnin qoyuluşu belədir: DQMV-də vəziyyətin normallaşdırılması tədbirləri haqqında. İndi burada məruzə etmiş V. Polyaniçkonun və təşkilat komitəsinin gördüyü bəzi işləri qiymətdən salmaq istəmirəm. Hər atılan addımı qiymətləndirə lazımdır. Ancaq süni surətdə yaradılmış DQMV məsələsindən, Azərbaycan xalqının başına gəlmiş bəladan xilas olmaq üçün bu məsələ gərək çox dərin, ətraflı təhlil olunsun.

Əziz deputatlar, bilirsiniz ki, Azərbaycan xalqı 20-ci ildən indiyədək bu cür ağır, çətin və çıxılmaz vəziyyətdə olmayıb. Düzdür, Azərbaycan torpaqlarının bir hissəsi 20-ci ildən bəri vaxtaşırı əldən gedib. Mən bu barədə mümkün olsa, öz sözlərimi deyərəm. Biz 22-ci ildən SSRİ-nin tərkibindəyik. SSRİ tərkibində olan heç bir müttəfiq respublikanın başına belə bəla gəlməyib. Heç bir müttəfiq respublika başqa müttəfiq respublikanın təcavüzünə məruz qalmayıb. Bu xırda məsələ deyil, bunu geniş müzakirə etmək lazımdır, danışmaq lazımdır, məsləhətləşmək lazımdır, dil tapmaq lazımdır, yol tapmaq lazımdır, Bu məsələyə tələm-tələsik baxmaq olmaz. Mən sizi həmin məsələyə bu cür mövqedən yanaşmağa dəvət edirəm. Buna görə də hesab edirəm ki, Dağlıq Qarabağda vəziyyətin normallaşdırılması — məsələnin dar çərçivədə qoyulması deməkdir. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması — məsələ belə qoyulmalıdır və biz bunun üçün çarə, çıxış yolu tapmalıyıq. Ona görə də biz gərək təhlil edək: Nə cür oldu ki, biz Dağlıq Qarabağı əldən verdik. Üç il bundan qabaq Dağlıq Qarabağ Azərbaycanın tərkibində idi. Pis idi, yaxşı idi — Azərbaycanın tərkibində idi. Düzdür, Dağlıq Qarabağ məsələsi 1920-ci ildən başlanıb. 1923-cü ildə DQMV yaranıb. Sonrakı illərdə bu məsələ erməni millətçiləri tərəfindən qaldırılıb. Ancaq gəlin tarixə düzgün qiymət verək. Gəlin etiraf edək ki, o dövrlərdə erməni millətçilərinin qarşısı alınmışdı. Bəs nə cür oldu ki, respublikamız bu qədər böyüdü, yüksəldi, nüfuz qazandı, ölkədə, dünyada tanındı, lakin 1988-ci ildə Azərbaycan torpağının bir hissəsi əlindən getdi? İndi biz orada vəziyyəti normallaşdırmaq istəyirik. Biz torpaqlarımızı özümüzə qaytarmalıyıq, orada hakimiyyətimizi bərpa etməliyik, biz respublikanın suverenliyini təmin etməliyik. Buna görə də mən çox həyəcanla danışıram. Səkkiz il ərzində mən Azərbaycanda olmamışam, amma ürəyim Azərbaycanla, Azərbaycan xalqı ilə olub. Mən öz ürək sözlərimi deməyə imkan tapdığım üçün hamınıza minnətdaram. Sizə də, seçicilərimə də minnətdaram ki, siz mənə qulaq asırsınız. Mən yenə də deyirəm, bu məsələləri biz geniş təhlil etməliyik. Bu, tarixi məsələdir. Azərbaycan xalqının tarixində ən çətin, ən ləkəli dövrdür. Gələcək nəsillər, hətta biz DQMV-də hakimiyyəti bərpa etsək də, torpaqlarımızı geri qaytarsaq da, mütləq bu məsələnin baş verməsini, bu üç il müddətində gedən prosesləri təhlil edəcəklər, öyrənəcəklər. Əgər indi biz bunu etməsək, onlar üçün çətinlik yaratmış olacağıq. Ona görə də belə hesab edirəm ki, bu üç il müddətində DQMV-nin əldən getmək prosesini biz gərək təhlil edək, gərək bizim Ali Məclisin sessiyası bu barədə çox geniş, ətraflı qərar qəbul etsin və bu tarixi məsələlərin hamısı orada öz əksini tapsın. Gərək müəyyən edilsin: harada, kim hansı günahı işləyib, nə cür olub, nə təhər olub ki, xalq belə acizlik göstərib, öz torpağımı əldən verib. Bunlar gərək hamısı şərh olunsun. Burada V. Polyaniçko deyir ki, Dağlıq Qarabağın əldən getməsinə Qorbaçov yol verir. Düzdür, mən də bu fikirdəyəm. Ölkənin rəhbəri Qorbaçovun bu barədə Azərbaycana xəyanət mövqeyi gərək tamamilə açıq-aşkar bilinsin və bizim tariximizə yazılsın. Bu məsələ qalxanda da, sonralar Ayaz Mütəllibovla söhbət edəndə də mən bu haqda fikrimi demişəm. Sizə də öz fikrimi çatdırmaq istəyirəm.

1987-ci ilin son aylarında bu məsələ qalxanda onun qarşısı alına bilərdi, ancaq alınmadı. 1988-ci ilin əvvəlində, fevral ayında böhran vəziyyəti gəlib çatanda da bu məsələnin qarşısını almaq mümkün idi. Ancaq alınmadı. Bu iki mərhələni götürürəm. Nə üçün alınmayıb? 1987-ci ilin son aylarında erməni millətçiləri müəyyən mövqeləri əldə etdikdən sonra Dağlıq Qarabağın ələ keçirilməsi üçün əlverişli şərait yarandığını hiss edərək, güclü siyasi kampaniyaya başladılar. O kampaniyanın qarşısını nə Azərbaycan Respublikasının rəhbərliyi ala bildi, nə də ki, Moskva respublikamıza, Azərbaycan xalqına kömək etdi. İstəyirəm dəqiqləşdirəm: Moskva deyəndə mən Qorbaçovu, onun ətrafında olan erməni müşavirlərini, erməni millətçilərini, ona təsir göstərən adamları nəzərdə tuturam. O vaxt onun qarşısı alınsaydı, nə Ermənistanla Azərbaycan arasında münasibətlər pozulardı, nə bizim millətlər arasında belə ziddiyyətlər əmələ gələrdi, nə də bir belə qanlar tökülərdi, Biz əsrlər boyu bir yerdə yaşamışıq. Nə edək ki, həyat bizi. belə qonşularla rastlaşdırıb. Nə biz buradan, nə də ki, onlar oradan köçə bilərlər. Ancaq görün, bu xəyanətin dərinliyi nə qədər böyükdür. O vaxt qəti qərarlar qəbul etmək lazım idi. Ola bilərdi ki, bu qərarlar kiminsə xoşuna gəlməsin. Ancaq baş vermiş təhlükəli məsələnin qarşısını alıb, Ermənistanı Ermənistan kimi, Azərbaycanı da Azərbaycan kimi saxlamaq olardı. Bunu ancaq İttifaqa rəhbərlik edən müdrik adam edə bilərdi. Ancaq Qorbaçovda bu müdriklik çatmadı və Azərbaycan rəhbərlərində də cürət, namus, cəsarət çatmadı ki, öz xalqının mənafeyini, öz xalqının namusunu qorusunlar. 1988-ci ilin mart ayında Sov.İKP Mərkəzi Komitəsi, SSRİ Nazirlər Soveti Dağlıq Qarabağın sosial-iqtisadi inkişafı üçün

qərar qəbul etdilər. Bu qərar Azərbaycan xalqının, Azərbaycan Respublikasının necə deyərlər, kürəyinə süngü sancmaq idi. O qərara qol çəkən, razılıq verən adamlar Azərbaycan xalqının mənafeyi haqqında düşünməli idi. Belə bir qərarın qəbul olunmasına yol vermək olmazdı, o böyük səhv idi. Ondan sonra gedən proseslərdən danışsaq, 1988-ci ilin iyul ayında SSRİ Ali Soveti Rəyasət Heyətinin sessiyasında Dağlıq Qarabağ məsələsi müzakirə olundu. Azərbaycan deputatları ilə Ermənistan deputatları eyni hüquqda orada iştirak edirdilər. Axı Ermənistan Respublikasından olan deputatlar nə hüquqla orada iştirak etməli idilər. Çünki mart ayında qəbul olunmuş qərarda Ermənistan Respublikasının rəhbərlərinə Dağlıq Qarabağın işlərinə qarışmaq üçün ixtiyar verildi. Heç də təsadüfi deyil ki, o vaxtlar Ermənistan KP MK-nın birinci katibi Arutyunyan çıxış edərək öz həmvətənlərini sakitləşdirirdi ki, onlar tarixdə birinci dəfə olaraq Dağlıq Qarabağın daxili işlərinə qarışmağa imkan tapıblar. Bəli, belə bir imkanı Qorbaçov və onun ətrafı Ermənistan rəhbərləri üçün yaratdılar. Sonrakı dövr haqqında danışsaq, Azərbaycan xalqı üçün ən böyük xəyanət olan DQMV-də SSRİ AS Rəyasət heyətinin xüsusi idarəetmə komitəsinin təşkil olunmasını qeyd etmək lazımdır. V. Polyaniçko öz səhvini burada etiraf etdi. Ancaq bu işdə günahkar tək o deyil. Başqa günahkarlar da çoxdur. İstərdik ki, onlar da öz səhvlərini etiraf etsinlər. Axı əldən verilən mövqeləri indi qaytarmaq, hörmətli deputatlar, olduqca çətindir. Volski idarə üsulu Dağlıq Qarabağı Azərbaycandan ayırmağı tamamilə təmin etdi. Təəssüf ki, o dövrdə Azərbaycanın siyasi rəhbərliyi bu idarənin yaranmasını böyük qələbə kimi qiymətlənirdi və bu idarəyə çox böyük ümidlər bəslədi. Onda onlar ya başa düşmədilər, ya da başa düşmək istəmədilər ki, bununla Dağlıq Qarabağ Azərbaycanın elindən tamamilə çıxır. Torpağımızı əlimizdən vermişik, onu geri qaytarmaq üçün nə qədər böyük əziyyətlər çəkirik. Yaxşı ki, sonra xalq oyandı, xalq hərəkatı burada çox böyük fəaliyyət göstərdi və Volski üsul-idarəsi ləğv olundu. Ancaq nə etməli, indi Volski Azərbaycan Respublikasını SSRİ Ali Sovetində təmsil edir. O, Azərbaycan Respublikasına nəinki xeyir verməyir, əksinə xəyanət edir. Biz isə buna tamamilə laqeyd baxırıq, heç də dəhşətlənmirik, heç də narazı olmuruq və hətta bəzi yoldaşlar mənə irad tuturlar ki, köhnə palan içi sökürəm. Yox, mən köhnə palan içi sökmürəm, həqiqəti bir daha yada salıram. Bir Volski deyil, o vaxtlar Balayan da, Poqosyan da, Dadamyan da bizim respublikadan deputat seçildi və onlar orada Azərbaycan Respublikasına daha da xəyanət etmək üçün böyük hüquqlar əldə etdilər. İndi, nəhayət, təşkilat komitəsi yaradılıb. Mən bir faktı da demək istəyirəm ki, on beş min azərbaycanlı Volskinin idarəsi vaxtında Stepanakert şəhərindən qovuldu. Bir azərbaycanlı kimi buna dözə bilmirəm ki, mənim xalqımın bir hissəsi öz doğma torpağından didərgin düşsün. Bu günlərdə televiziya ilə eşitdim ki, respublika prokuroru Stepanakertdə 250 azərbaycanlı evinin yandırılması haqqında iş qaldırıb. Bəs buna necə dözək? Nə üçün indiyədək bu iş qaldırılmayıb? Evlər 1988-ci ildə yandırılıb. Bu cinayətlərə niyə bu günə qədər biganə qalmışıq? Bunların hamısı çox böyük dəhşət doğurur, çox böyük həyəcan hissi yaradır. Belə hesab edirəm ki, indi təşkilat komitəsindən bundan artıq fəaliyyət tələb etmək çətindir. İndi mən heç bir konkret təklif vermək istəmirəm. Hesab edirəm ki, deputatlar öz fikirlərini deməlidirlər. Cürbəcür fikirləri öyrənəndən sonra qəti tədbirlər qəbul etmək olar. Fikrim belədir, üç il arxadadır. Əgər bu minvalla getsək, biz bir neçə il də Dağlıq Qarabağda Azərbaycanın hakimiyyətini bərpa edə bilməyəcəyik. Unutmayın ki, Dağlıq Qarabağ Fələstin probleminə çevrilə bilər. Buna da heç cür yol vermək olmaz.

**Üçüncü:** Azərbaycan Sovet Respublikasının mövcud olduğu 70 ildə Ermənistan mərkəzin havadarlığına söykənərək respublikamıza qarşı torpaq iddiaları edib, təxribat əməliyyatları aparıb, nəticədə xeyli torpağımız zəbt olunub. Bir həqiqəti də qeyd etmək lazımdır ki, Ermənistan həmişə qəsbkarlıq fəaliyyəti göstərib, biz isə müdafiə olunmaq, bəzən isə təslim olmaq mövqeyində durmuşuq. İndi də belə mövqedəyik.

Biz bu məsələni Naxçıvan Muxtar Respublikasının Ali Məclisində müzakirə etdik. Məlum oldu ki, təkcə 1929-cu ildən sonra Naxçıvan Respublikasının ərazisindən 625 kvadrat kilometr torpaq sahəsi, yəni 9 kənd Ermənistana verilib. Bu isə 62 min hektar kənd təsərrüfatına yararlı torpaq deməkdir.

Burada Zəngilan rayonundan gərək ki, deputat Bədəlova çıxış elədi və Nüvədi kəndi haqqında danışdı. Sonra deputatlardan biri Zəngəzur, Göyçə mahalı haqqında danışdı. İndi qəti rəqəm demək istəmirəm. Ancaq mütəxəssislərdən bir neçəsi mənə dedi ki, 1918-ci ildə Azərbaycan Respublikasının ərazisi 114 min kv. kilometr olub. İndi isə 86 min kv. km-dir. Gör əlimizdən nə qədər torpaqlar gedib.

Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərəfini əks etdirib. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün onun uğrunda ölüm-dirim mübarizəsi aparıb. Ulu babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qoruyub, onun yolunda canlarını və övladlarını qurban verməkdən belə çəkinməyiblər.

Təəssüf ki, biz bu ənənələri unuduruq. Buna artıq dözmək olmaz. Ona görə də təklif edirəm ki, bir Dağlıq Qarabağ məsələsi yox, bütün 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın. Hansı dövrdə, hansı sərhəd sahəsində, hansı

torpaqlar verilib? Bu torpaqların hansı qərarlarla, kim tərəfindən verilməsi müəyyən olunsun. Və biz Ermənistana qarşı artıq müdafiə mövqeyində yox, hücum mövqeyində duraq və burada deputatların dediyi kimi, o torpaqların geri qaytarılması üçün mübarizə aparaq. İndi biz mübarizəyə keçməliyik və mən də bu mübarizəyə hazıram. Əgər deputatlar razı olarsa, bizim sessiyamız Ermənistanı təcavüzkar dövlət adlandırmalıdır. Biz bu barədə xüsusi qərar çıxarmalı və onu bütün dünyaya bəyan etməliyik,

Soruşdular ki, o torpaqları kim verib? Mən təklif edirəm ki, aydınlaşdırılsın. Eyni zamanda arayış verə bilərəm ki, 1969-cu il 14 iyuldan (mən başa düşdüm, o sualı mənə niyə verdilər), Azərbaycana rəhbərlik etdiyim dövrdən, 1982-ci ilin dekabrına qədər Azərbaycan ərazisindən bir qarış da olsa, Ermənistana torpaq verilməyib. Mən buna cavab verirəm və özümü çox xoşbəxt hesab edirəm ki, o dövrdə ermənilərin torpaq iddialarının qarşısını ala bildik. V. Polyaniçko dedi ki, 1977-ci ildə də Dağlıq Qarabağ məsələsi qalxmışdı. Bəli, qalxmışdı. Lakin biz o hərəkətlərin qarşısını dərhal aldıq.

Diqqətinizə görə minnətdaram.

**«Aydınlıq» qəzeti, 15-21 fevral 1991-ci il,**
**«Vətən səsi», 27 fevral 1991-ci il**

**Əliyev Heydər. Şəxsi mövqe. – B. - 1994. - S. 6-14.**

## Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxışı (7 mart 1991-ci il)

Hörmətli xalq deputatları!

Yeni İttifaq müqaviləsi ilə əlaqədar olaraq təyin olunmuş referendumda iştirak etmək və ya etməmək çox mühüm məsələdir. Azərbaycan xalqının gələcək taleyi həll olunur. Ona görə də mülahizə və təkliflərimi mən də bildirmək istəyirəm.

1922-ci ildən Azərbaycan Sovet İttifaqının tərkibindədir. Bu müddət ərzində xalqımız tarixi yol keçib, nailiyyətlər əldə edib. Eyni zamanda çox itkilərə, çətinliklərə də məruz qalıb. Bunları inkar etmək olmaz.

Biz hamımız bu İttifaqın mövcud olduğu dövrdə dünyaya gəlmişik, təhsil-tərbiyə almışıq, formalaşmışıq. Biz hamımız, hər halda tam əksəriyyətimiz bu İttifaqa həddindən artıq inanmışıq, sədaqətlə xidmət etmişik, xalqımızın səadətini, xoşbəxt gələcəyini bu İttifaq daxilində görmüşük. Mən və mənlə birlikdə xeyli müddət respublikaya rəhbərlik edən həmkarlarım. İttifaqın möhkəmlənməsi üçün daim çalışmış, Azərbaycan xalqında da bu İttifaqa sadiqlik və məhəbbət hissiyyatları yaratmağa cəhd etmişik.

Fəqət son illərdə dünyada, ölkədə gedən ictimai, siyasi proseslər keçmişimizə münasibəti, ümumi dünyagörüşünü dəyişdirmiş, Sovet İttifaqında mərkəzlə respublikalar arasında olan iqtisadi, siyasi əlaqələr açılmış, çılpaqlaşmış, hansı tərifin daha çox xeyir götürdüyü, zərər çəkdiyi aydınlaşmışdır. Bir neçə respublikada baş vermiş milli demokratik hərəkatların İttifaq dövləti tərəfindən zorakılıqla, hərbi qoşun hissələri vasitəsilə boğulması tədbirləri İttifaqın imperiya siyasəti apardığını tam aşkar etmişdir. İttifaq dağılmağa başlamışdır.

Ölkənin rəhbərliyi yetmiş il mövcud olan İttifaqın yararsız olduğunu bəyan edərək, respublikaları yeni İttifaq yaratmağa dəvət edir. Qorbaçov bir neçə çıxışında hətta belə demişdir ki, guya ölkədə indiyə qədər həqiqi İttifaq olmayıb, respublikalar heç də İttifaqda yaşamayıb, əsl İttifaq bundan sonra yaranacaqdır. Həqiqəti isə desək, yeni İttifaq müqaviləsinin layihəsi əvvəlkindən də yararsızdır.

Respublikanın keçmiş rəhbəri kimi mən də belə yararsız və naməlum İttifaqa xidmət etdiyimi, buraxdığımız səhvləri etiraf edirəm və heyfsilənirəm. Nəzərə almaq lazımdır ki, hər dövrün öz hökmü var. Biz də, demək olar ki, bu salonda oturanların hamısı, o hökmün təsiri altında olmuşuq. İndi isə hesab edirəm ki, bizim xalqımız üçün yetmiş illik imtahan bəsdir. Yeni bir İttifaqa girməyi Azərbaycan xalqı üçün rəva bilmirəm.

Keçmişdə İttifaqa xidmət etməyimə bəraət qazandırıcı əsaslar da var. O dövrdə respublikamızda yaranmış güclü sosial-iqtisadi və intellektual potensial xalqımızın milli sərvətidir və Azərbaycanın müstəqilliyi üçün yaxşı zəmin yaradır.

Bir sözlə, mən yeni İttifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Bu bütün seçicilərimin, deputatı olduğum Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan xalqı artıq bu yola çıxmışdır. O öz tarixini yenidən təhlil edir, yenidən qiymətləndirir, öz milli ənənələrini bərpa edir, milli köklərinə qayıdır. Respublikada aşağıdan, xalq kütlələri tərəfindən başlanmış milli dirçəliş, dövlət quruluşunun dirçəlişi hərəkatı inkişaf edir.

Bu təqdirəlayiq proseslərlə əlaqədar olaraq Ali Sovetin sessiyası fevralın 5-də müəyyən qərarlar qəbul etdi. Azərbaycan Respublikasının adının dəyişilməsi, dövlət bayrağının dəyişilməsi, «28 May» günü haqındakı qərarları nəzərdə tuturam. Lakin çox təəssüf ki, bu qərarlar müzakirə olunmadı, onların qəbul edilmə səbəbləri izah olunmadı, qərarın özündə də onların məna və mahiyyəti göstərilmədi.

Şübhəsiz ki, bu qərarlar forma naminə qəbul olunmayıb. Bəs belə olan halda nə üçün onların böyük siyasi, tarixi əhəmiyyəti Ali Sovetin sənədlərində öz əksini tapmayıb?

Yetmiş il respublikamız sovet sosialist məzmunu daşıyıb. İndi biz respublikamızın adını bu sözlərdən azad etdik. Bəs indi biz hansı yəni siyasi quruluşu qəbul edirik? Məlum deyil.

Yetmiş il bizim respublikamız Oktyabr inqilabı bayrağı altında yaşayıb. Biz o bayraqdan imtina etdik. Yeni bayraq qəbul etdik. Fəqət, bu heç də yeni bayraq deyil. O, 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının milli dövlət bayrağıdır. Bu mühüm siyasi əhəmiyyət kəsb edən fakt nə üçün qeyd olunmadı?

Məmməd Əmin Rəsulzadə partiyasının ideyasını təmsil edən bayraqla, ona zidd olan ideyanın banisinin büstünün sessiya keçən salonda yan-yana durması da təəccüb doğurur. Sadəcə desək, bu uyğunsuzluğu anlamaq çətindir. Bəlkə buna bir izahat vermək lazım idi?

28 May Azərbaycan dövlət quruluşunun dirçəliş günü kimi istirahət günü elan edilib. Məlumdur ki, 28 May 1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranmışdır. Belə olan halda bu hadisəyə və 28 Aprel 1920-ci il hadisəsinə siyasi qiymət vermək lazımdır. Bu məsələlər gərək Ali Sovetin sessiyasında müzakirə olunsun.

İkitərəfli, daha açıq desək, ikiüzlü, qorbaçovsayağı siyasət xalqda inam doğura bilməz. Bu günlərdə Minsk şəhərində çıxış edərkən Qorbaçov kommunist olduğunu, Kommunist Partiyasına axıra qədər sadiq qalacağını təkidlə sübut etməyə çalışırdı. Fəqət öz andını Kommunist Partiyasına, Leninə, Oktyabr inqilabı ideyalarına tam zidd mövqe tutan Soljenitsinin sözləri ilə əsaslandırırdı. Sual olunur: Biz hansı məzhəbə itaət etməyə dəvət olunuruq?

Bəziləri respublikamızın müstəqil, İttifaqdan ayrı yaşamağa imkanı olmadığını sübut etməyə çalışır. İttifaqda olan respublikaların bir-biri ilə sıx iqtisadi, texniki əlaqələrlə bağlı olduğuna görə onların İttifaqdan ayrı yaşaması mümkün olmadığı fikri də ölkədə geniş yayılmışdır.

Bu təbliğatlar əsassızdır. Əvvəla, Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir. Bu barədə deputat Səmədzadənin çıxışındakı bir çox müddəalarla mən razı deyiləm, Əgər reqlamentdən əlavə vaxt verilsə, onların əsassız olduğunu sübut edərəm.

İkincisi, dünyanın hər bir dövləti digər başqa dövlətlərlə istədikləri sahələrdə qarşılıqlı iqtisadi, ticarət, texniki əlaqələr yaradır, ümumdünya inteqrasiya prosesində iştirak edir və bunların heç biri bu dövlətləri müstəqillikdən məhrum etmir. Ona görə də İttifaqda olan respublikaların iqtisadi əlaqələri onların müstəqilliyə nail olmasına mane ola bilməz. Fikrimcə, əgər Azərbaycan tam müstəqil dövlət olarsa (o, indi İttifaqda olan respublikaların hər biri ilə, hətta İttifaq qalarsa, onunla da qarşılıqlı, bərabər hüquqlu, iki tərəfə də faydalı iqtisadi əlaqələr yarada bilər), bu, müstəqil Azərbaycanın gələcək inkişafı üçün daha səmərəli olar. Azərbaycan xalqının başqa xalqlarla dostluq əlaqələri müstəqil xarakter daşıyar, daha səmimi, daha möhkəm olar.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan xalqının başqa xalqlara nisbətən yeni İttifaq müqaviləsindən imtina etməsinə daha çox əsası var. Üç ildir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi pozulub. Lakin İttifaq dövləti bu vəziyyətin aradan qaldırılması üçün səmərəli tədbirlər görməyib.

1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edilmişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür.

Təəssüf ki, bu təcavüz indiyə qədər davam edir. Bir ildən artıqdır ki, Azərbaycanın paytaxtı fövqəladə vəziyyət şəraitində yaşayır. Bizim sessiyamız da bu şəraitdə keçirilir. Bir ildən artıqdır ki, Azərbaycan xalqı şəhidlərə matəm saxlayır. Respublikanın şəhərlərində, qəsəbələrində, kəndlərində şəhidlərin xatirəsinə abidələr ucaldılır. Fəqət qatillər indiyə qədər aşkar olunmayıb. Buna heç vəchlə bəraət qazandırmaq olmaz. Bu məsələ müzakirə olunmalıdır. 20 Yanvar faciəsinə Ali Sovetin sessiyası siyasi qiymət verməlidir, onun günahkarlarını müəyyən etməlidir. Deputat Qarayevin məruzəsindəki məlumatlar buna tam əsas verir. Məsələnin müzakirəsinin təxirə salınması, uzadılması 20 Yanvar faciəsini ört-basdır etmək niyyəti kimi qəbul oluna bilər. Buna yol vermək olmaz.

Xalq deputatı kimi Bakıda bir ildən artıq müddətdə fövqəladə vəziyyətin hökm sürməsini başa düşə bilmirəm. Aydın deyil ki, sovet ordusunun qoşun hissələri kimi kimdən qoruyur.

Bəziləri deyir ki, 20 Yanvarda Bakıya çağırılmamış qoşun hissələri gəlibdir. Əgər onlar, doğrudan da, çağırılmamışdırlarsa, respublika dövləti öz suveren hüquqlarından istifadə edərək onları dərhal geri qaytarmalı idi. Lakin belə olmayıb. Əksinə, qoşunların Bakıda indiyə qədər saxlanılması zəruri hesab olunur.

Elmira Qafarovanın «vətəndaş müharibəsi baş verər» sözləri ilə deputatları və xalqı qorxutması da əsassızdır. Anlamaq olmur: kim kiminlə müharibəyə hazırlaşıb? Bu çox ciddi məsələdir. Əgər belə bir təhlükə varsa, məsələ Ali Sovetin sessiyasında müzakirə olunmalı, lazımi tədbir görülməlidir.

Sessiyanın gedişi bir daha göstərdi ki, Ali Sovetin qarşısında çox böyük və mürəkkəb vəzifələr durur. Lakin ən əsas vəzifə respublikanın ərazi bütövlüyünü bərpa etmək və xalqımızı erməni təcavüzündən qorumaqdır. Son illərdə Ermənistanda millətçi quldur birləşmələri tərəfindən güclü silahlı hərbi potensial yaranmışdır. Şübhə yoxdur ki, bu, Azərbaycana qarşı təcavüzkarlıq məqsədi daşıyır. Azərbaycan, xüsusən onun sərhədyanı rayonları təhlükə altındadır. Uzun müddətdir ki, Naxçıvan Muxtar Respublikasının

əhalisi böyük narahatçılıq hissi keçirir. Ona görə sıyıqsızlığa yol vermək olmaz. Respublikanın müstəqil müdafiəsini təmin etmək üçün təxirəsalınmaz tədbirlər görülməlidir.

Bunun üçün respublikada ümumxalq birliyinə nail olmaq lazımdır. Təəssüf ki, belə bir ağır dövrdə bəzi dairələr xalqı birləşdirmək əvəzinə onu parçalamağa, ayrı-ayrı regionları, rayonları, kəndləri, hətta ayrı-ayrı şəxsləri belə bir-birinə qarşı qoymağa cəhd edirlər. Bunun qabağı tezliklə alınmalıdır. Ümumxalq birliyi yaratmaq üçün Ali Sovet gərək öz mövqeyini aydın bildirsin, öz platformasını yaratsın,

Məlumdur ki, Sovet İttifaqı Kommunist Partiyasının bir hissəsi olan Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin platforması xalqı birləşdirə bilməz. O, xalq arasında nüfuzdan düşüb, bütün xalqın iradəsini təmsil etmir. Kommunist Partiyası hakimiyyətdən tamamilə imtina etməlidir. Yuxarıdan aşağıya qədər partiya komitələrinin katibləri, eyni zamanda sovet orqanlarında rəhbər vəzifə tutmamalıdırlar. Demokratiyanın, siyasi plüralizmin, aşkarlığın inkişafı üçün şərait yaradılmalıdır. Bütün siyasi qüvvələr eyni hüquqda fəaliyyət göstərməlidir. Xalqa hər şey düzgün çatdırılmalıdır. Sosial ədalət bərqərar olmalıdır.

Azərbaycan xalqının birliyi yeni, demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Doğrudur, bu yolda çətinliklər də az olmayacaqdır. Fəqət, nəyin bahasına olursa-olsun biz buna nail olmalıyıq. Biz bu yola düşməsək, bunu gələcək nəsillər edəcək. Və onlar, tarix bizi bağışlamayacaq. İndi hər bir namuslu, qeyrətli azərbaycanlı gərək öz şəxsi mənafelərini, imtiyazlarını unutsun, xalqın aqibəti, bu günü və azad gələcəyi haqqında düşünsün. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır. Azərbaycan xalqı birləşməli, öz müqəddəs doğma torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır.

Xalq deputatlarını, bütün Azərbaycan xalqını bu yola dəvət edirəm və əmin edirəm ki, mən bu yoldan dönməyəcəyəm.

Diqqətinizə görə sağ olun.

**7 mart 1991-ci il**

**«Səs» qəzeti, 15 mart 1991-ci il.**

**Əliyev Heydər. Şəxsi mövqe. – B. - 1994. - S. 14-20.**

## SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına müraciəti (19 iyul 1991-ci il)

Sizin nəzərinizə çatdırıram ki, mən Sov.İKP-dən çıxmaq qərarına gəldim. Dərhal xəbərdarlıq edirəm ki, bu, sadəcə, «dəbə» uymaq deyil, son illər ərzində keçdiyim ağır məyusluqlar yolunun məşəqqətləri və hadisələrini yenidən qiymətləndirməyimin yekunudur.

Məni bu addımı atmağa məcbur edən başlıca səbəblər aşağıdakılardır:

**Birincisi,** hələ 1990-cı ilin yanvarında Mərkəzin və Azərbaycan KP-nin siyasi rəhbərliyi altında Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzdən sonra məndə Sov.İKP sıralarından çıxmaq fikri yarandı. Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi. Bu antihumanist, konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən Sov.İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid bağlayırdım.

Özümü ələ alıb səbrlə gözlədim. Çıxışlarıma cavab əvəzinə çox çəkmədi ki, «Pravda»dan başlayaraq partiyanın mətbu orqanlarında mənə qarşı hücumlar təşkil edildi. Mənə qarşı yönəldilmiş uydurma faktları əsaslandırılmış şəkildə həmin kütləvi informasiya vasitələrinin özündəcə təkzib etmək cəhdlərim boşa çıxdı. Yenidənqurmanın əsas nailiyyəti olan aşkarlıq özünü birtərəfli göstərirdi.

Yanvar faciəsinin günahkarlarını üzə çıxarmaq və cəzalandırmaq haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, ayrı-ayrı vətəndaşların, görkəmli ziyalıların müraciətlərini Azərbaycan kommunist rəhbərliyi qətiyyətlə rədd edirdi.

Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil.

**İkincisi**, üç ildən artıqdır ki, Mərkəzin ikiüzlü siyasəti nəticəsində, Sov.İKP-nin havadarlıq etdiyi erməni millətçilərinin səyi ilə DQMV-də yaranmış kəskin münaqişəli vəziyyət saxlanmaqdadır. Vilayət əslində tamamilə Azərbaycanın dövlət idarəçiliyindən çıxıbdır.

Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü konstitusiyaya zidd olaraq kobud şəkildə pozulub. Ermənistan və Azərbaycan arasında elan edilməmiş müharibə gedir. Hər gün iki tərəfdən də adamlar ölür. Bütün bunlar «humanist ideologiyalı» Sovet dövləti üçün adi haldır.

Əminəm ki, partiya rəhbərliyi istəsəydi, hələ 1987-ci ildə üzdəniraq Qarabağ problemi ətrafında milli münaqişə təzə başlananda onun qarşısını ala bilərdi, get-gedə güclənən qarşıdurmaya və həm Azərbaycan, həm də erməni xalqına ağır fəlakət və müsibətlər gətirmiş bu qırğınlara imkan verməzdi. Deməli, siyasi Mərkəzə bu münaqişə lazımdır.

**Üçüncüsü**, bütün cəmiyyətin demokratikləşməsi, siyasi azadlıqların və plüralizmin bəyan edildiyi bir dövrdə Azərbaycanda ərazi bütövlüyünün müdafiəsinə qalxmış geniş demokratik hərəkat və cəmiyyətim demokratikləşməsi Sov.İKP-nin rəhbərliyi altında Azərbaycan KP MK-nın səyi ilə boğulur. Bu illərdə nə qədər adam siyasi fəaliyyətinə görə repressiyalara məruz qalıb.

İl yarımdır ki, Azərbaycanın 2 milyonluq paytaxtı heç bir əsas olmadan fövqəladə vəziyyət rejimində yaşayır. Məhz belə bir şəraitdə respublika Ali Sovetinə üzdəniraq demokratik seçkilər və nəticələri İttifaqın xeyrinə irəlicədən həll olunmuş referendum keçirilmişdir. Fövqəladə vəziyyət şəraitində hər hansı demokratikləşməyə və xalqın iradəsini sərbəst ifadə etməsinə ümid bağlamaq avamlıq olardı. Demokratik təşkilatlar dəfələrlə seçiciləri« əksəriyyətimin referendumda iştirak etməməsi və referendumun nəticələrinin saxtalaşdırılması barədə məsələ qaldırmışlar. Ancaq Azərbaycanın kommunist rəhbərliyi bu müraciətlərə hətta baxmağa belə lüzum bilməyib.

Mən Mərkəz tərəfindən sırınan yeni İttifaq müqaviləsinin əleyhinə çıxmışam və çıxıram. hər hansı bir suveren dövlətim tərkibində bir neçə suveren dövlət və eləcə də bundan irəli gələn azadlıqlar, səlahiyyətlər və funksiyalar ola bilməz. Bütün müttəfiq respublikalara əsl siyasi, iqtisadi azadlıqlara, milli dövlət dirçəlişi üçün müstəqilliyə imkan vermək lazımdır. Bu heç də respublikaların iqtisadi birliyinə və ənənəvi mədəni əlaqələrinə mane olmaz, əksinə, onların təkmilləşməsinə, ikitərəfli və çoxtərəfli istiqamətdə inkişafına təsir göstərər.

Naxçıvan Muxtar Respublikasının və Azərbaycanın xalq deputatı kimi öz çıxışlarımda bu məsələləri dəfələrlə qaldırdım. Təklif etdim ki, xalq arasında tam nüfuzunu itirmiş Azərbaycan KP təkhakimiyyətlikdən imtina etsin, bütün siyasi qüvvələrin azad və bərabərhüquqlu fəaliyyətini təmin etsin, demokratik cəmiyyətin yaranmasına, aşkarlıq və plüralizmə şərait yaratsın.

Ancaq bu çıxış və təkliflərimə Azərbaycanın kommunist rəhbərliyi nəinki baxır, əksinə, mənim ünvanıma təşkil olunmuş və hazırlanmış hücumlar şəklində cavab verir. Azərbaycanda mənim çıxışlarımı dərc edən qəzet redaktorları, jurnalistlər işdən çıxarılır, təqiblərə məruz qalırlar.

Bütün yuxarıda ifadə etdiklərim məni bu axırıncı addımı atmağa və Sov.İKP sıralarından çıxmaq haqqında bəyanat verməyə məcbur etdi; baxmayaraq ki, bu qərara gəlmək mənim üçün olduqca çətin olub.

Mən kommunist ailəsində böyümüşəm və bütün şüurlu həyatım Kommunist partiyası ilə bağlı olub. 1943-cü ildə 20 yaşında ikən öz taleyimi bolşeviklər partiyasına bağlamışam. Kommunist partiyasının ideallarına varlığımla inanmışam və onun planlarının həyata keçirilməsində fəal iştirak etmişəm.

İndi bütün bu inamlarım məhv olub. Yeniləşən partiya və respublikaların yeniləşən ittifaqı haqqında saysız-hesabsız bəyanatlar yenə də xalqı aldatmaqdır.

Xalqa açıq və doğrusunu demək lazımdır ki, bizim ölkədə kommunizm eksperimenti, sosializm yolu özünü doğrultmadı, zorakılıqla yaranan və saxlanan respublikaların ittifaqı süquta uğramaqdadır.

Bu bəyanatdan sonra qarşıma çıxa biləcək çətinlikləri təsəvvür edir, hər cür hücumları və mənəvi zərbələri qabaqcadan görürəm.

Partiyanın keçdiyi yolun ayıq təhlili məni yuxarıda bəyan etdiyim indiki mövqeyə gətirdi.

Bunula belə üzərimə düşən məsuliyyətin dərəcəsini də başa düşürəm. Sov.İKP sıralarını tərk edərkən, mən bütün təmiz və namuslu kommunistlərə hörmət bəslədiyimi bildirirəm.

**Heydər ƏLİYEV.**
**19 iyul 1991-ci il, Moskva şəhəri**

**«Nezavisimayz qazeta», 23 iyul 1991-ci il, «Azadlıq» qəzeti, 26 iyul 1991-ci il**

**Əliyev Heydər. Şəxsi mövqe. – B. - 1994. - S. 20-23.**

## Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxışı (29 avqust 1991-ci il)

Hörmətli millət vəkilləri! Ölkədə, cəmiyyətdə siyasi və iqtisadi böhran, dövlət hakimiyyəti böhranı son dərəcə şiddətlənmişdir. Mürtəce qüvvələrin demokratiya əleyhinə hücumu, cinayətkar qrupların həyata keçirdikləri dövlət çevrilişi boşa çıxıb. Biz artıq Sovet imperiyasının, kommunist partiyasının dağılmasının şahidiyik. Bu dövrdə bizim respublikamızın, Azərbaycan xalqının vəziyyəti daha çətin, daha ağırdır. Bunun əsas səbəbi respublikada hökm surən Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasəti və buraxdığı kobud və bağışlanmaz səhvlərdir (zaldan etiraz səsləri). Mən çox xahiş edirəm km, sessiyada heç bir deputatı öz sözünü deməkdən məhrum etməyəsiniz. Belə siyasətin nəticəsində respublikanın kommunist rəhbərliyi ölkədə olmuş 19-22 avqust dövlət çevrilişini, Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyətini faktiki olaraq bəyənmiş, beləliklə də, Azərbaycan xalqını çox pis vəziyyətə qoymuşdur. Bu haldan erməni millətçiləri dərhal çevikcəsinə istifadə etmiş, bizim respublikaya qarşı hərbi əməli$^{y}$yatı, siyasi təbliğatı gücləndirmişlər.

İndi biz respublikanın həyatında ən çətin dövrdə çıxış yolu tapmalıyıq. Və hamımız çıxış yolunun tapılmasına səy göstərməliyik. Ancaq biz aydın etməliyik: bu çıxış yolunu biz necə tapa bilərik. Son günlərdə, o cümlədən bu gün bu tribunadan xalqı birliyə, milli həmrəyliyə dəvət edən çağırışlar eşidilir. Təəssüf ki, bu çağırışlar artıq gecikib. Ancaq biz bu günlərdə nəyin bahasına olursa-olsun milli birlik yaratmağa çalışmalıyıq. Bunun üçün isə tam aydın olmalıdır: bu milli birlik hansı platforma əsasında hasil ola bilər, hansı platforma əsasında biz buna nail ola bilərik? Bu birliyi təmin etmək üçün bir neçə şərt təcili olaraq həyata keçirilməlidir. Bu təklifləri mən seçkiqabağı çıxışlarımda, Azərbaycan Respublikası Ali Sovetinin fevral və mart aylarında keçirilən sessiyalarında, bu il iyul ayının 19-da Kommunist Partiyasından çıxarkən verdiyim bəyanatda və nəhayət, bu il avqust ayının 24-də Azərbaycan Ali Sovetinin Rəyasət heyətinə göndərdiyim məktubda göstərmişəm. Təkrar etmək istəmirəm. Ancaq bu təkliflər haqqında bir neçə qeydimi bildirmək istəyirəm.

**Birinci**. İl yarımdır ki, Bakıda fövqəladə vəziyyət hökm sürür. Bu gün Ayaz Mütəllibov dedi ki, fövqəladə vəziyyət nəyə lazımdır? Götürülməlidir. Çox yaxşı, ancaq bəs bunu bir il yarım Bakıda saxlayan kimdir? Kimin qərarı ilə Azərbaycan Respublikası Ali Sovetinin 1990-cı il yanvarın, 22-də qəbul olunmuş qərarı ləğv olunub və indiyə qədər həyata keçirilməyibdir? Aydınlaşdırmaq lazımdır ki, bu ilyarımda. bu fövqəladə vəziyyəti Bakıda saxlamaq üçün respublika nə qədər vəsait xərcləyib və respublikaya nə qədər zərər dəyib.

**İkinci**. Azərbaycan Respublikası rəhbərliyinin dövlət çevrilişi haqqındakı mövqeyinə dair cürbəcür söhbətlər gəzir, xarici və İttifaq informasiya orqanları xəbərlər yayırlar və bu məsələ aydınlaşdırılmalıdır. Kim xaricdə nə deyib, o bizim üçün məlum deyil, ancaq məlumdur ki, avqust ayının 21-də Azərbaycan televiziyası ilə Ayaz Mütəllibovun xalqa müraciəti rus və Azərbaycan dilində oxunub və bu müraciətdə fövqəladə vəziyyət komitəsinin fəaliyyəti bəyənilib və Dövlət Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyəti ilə Azərbaycan Respublikasının bir neçə məsələlərinin həll olunmasına ümid bəslənilib. O cümlədən Dağlıq Qarabağ məsələsinin və silahlanmış erməni bandit qruplarının tərksilah olunması məsələsinin həlli Fövqəladə Vəziyyət Komitəsinin fəaliyyəti ilə bağlanıbdı. Bunu aydın demək lazımdır. Əgər belə bir səhv buraxılıbsa, açıq demək lazımdır, xalq həqiqəti bilməlidir. Bir gün belə deyib, o birisi gün başqa cür demək olmaz, bu heç bir xalqda inam yarada bilməz.

**Üçüncü**. Xalqda birlik yaratmaq üçün Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir. O, Sovet İttifaqı Kommunist Partiyasının tərkib hissəsidir. Sovet İttifaqı Kommunist Partiyası dağılmışdır. Azərbaycan Kommunist Partiyasını saxlamaq, bunu qurultayda həll etmək fikri bunu uzatmaq, yenə Kommunist partiyasının imkanlarından istifadə etmək meylini göstərir. Bununla heç razılaşmaq olmaz. Azərbaycan Kommunist Partiyasının bütün strukturları ləğv olunmalıdır. Azərbaycan Kommunist Partiyasının bütün mətbuat orqanlarının işi dayandırılmalıdır və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin hərbi xunta ilə əməkdaşlı edib-etməməsi məsələsi aydınlaşdırılmalıdır. Bunun üçün parlament komissiya yaratmalıdır. Məlumdur ki, Fövqəladə Vəziyyət Komitəsinin hökm sürdüyü dövrdə Azərbaycan Respublikasının mətbuat orqanları, partiyanın mətbuat orqanları 3 gün rus və Azərbaycan dillərində bu komitənin sənədlərini dərc eləyib. Azərbaycan televiziyası bu komitənin bütün sənədlərini Azərbaycan dilinə tərcümə edib xalqa çatdırıbdı. Bunun özü elə əməkdaşlığın olmasını göstərir. Kommunist partiyasının mövqeyindən fəaliyyət göstərən vəzifəli şəxslər öz vəzifələrindən imtina etməlidir.

**Dördüncü.** 20 Yanvar faciəsi dövründən il yarımdan çox vaxt keçir. Bu gün burada da, bu salonda cürbəcür söhbətlər gedir. Bir qrup bir fikirdədir, məndən qabaq çıxış edən Rəhimov başqa fikirdədir. Mən sual verirəm Ali Sovetin sədri Elmira Qafarovaya, Azərbaycan Prezidenti Ayaz Mütəllibova. Nə üçün indiyə qədər bu məsələyə siyasi qiymət verilməyib? Tamerlan Qarayevin verdiyi arayışla mən razı ola bilmərəm. Çünki bu məsələnin həm siyasi tərəfi var, həm hüquqi tərəfi var. Bu məsələyə dərhal siyasi qiymət vermək olardı. O ki, qaldı məsələnin hüquqi cəhətinə, ayrı-ayrı adamların məsuliyyətə cəlb olunmasına, onu şübhəsiz ki, istintaq yolu ilə aydınlaşdırmaq lazımdır. Buna siyasi qiymət verilmədiyinə görə başqa tədbirlər həyata keçirmək olmur.

**Elmira Qafarova:** Verilib, sessiyada, ayın 20-də.

**Heydər Əliyev:** Bəs verilibsə, kim bu hərbi təcavüzün günahkarıdır? Bu günləri deyirlər ki, Yazov, Kryuçkov, Bakatin, Girenko, Qorbaçov. Bu doğrudur. Bəs Azərbaycan rəhbərliyindən kimdir günahkar? Bəli, bu şəxslər də məlumdur. Vəzirov, Qafarova, Mütəllibov və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin başqa üzvləri. Bəli, əgər başqa adamlar da günahkardırsa, aydınlaşdırmaq lazımdır. Başqa qüvvələr də günahkardırlarsa, demokratik qüvvələr, Xalq Cəbhəsi, onlara da siyasi qiymət vermək lazımdır. Bunları aydınlaşdırmayana qədər Azərbaycanda siyasi sabitliyi əldə etmək olmaz. Əgər bu məsələyə siyasi qiymət verilibsə, Ayaz Mütəllibovdan xahiş edirəm desin, nə üçün Qorbaçov 3 nazirin təyin olunması barədə 9 respublikanın rəhbərlərindən razılıq alarkən, Ayaz Mütəllibov Bakatinin Dövlət Təhlükəsizliyi Komitəsinə sədr təyin olunmasına etiraz etməmişdir? Əgər edibsə, bəs niyə çıxışında demədi? Nə üçün 20 Yanvar faciəsinin günahkarlarından biri olan Vəzirov Azərbaycan Respublikasından Xalq Deputatları Qurultayını hazırlama Komissiyasına üzv seçilibdi? Onu ora kim təqdim edib? Azərbaycan Respublikasının rəhbərləri əgər bunu ediblərsə, onlar Azərbaycan xalqının qarşısında günah edirlər, mən bunu tam açıqlığı ilə demək istəyirəm.

Bütün bu məsələləri aydınlaşdırmadan - şübhəsiz ki, mən də çıxış edən deputatların təklifləri ilə razıyam — Azərbaycanda prezident seçkiləri keçirmək olmaz. Sonra Azərbaycan Respublikası Ali Soveti deputatlarının əksəriyyəti, tam əksəriyyəti kommunist olduqlarına görə, Kommunist Partiyasının rəhbər orqanlarında fəaliyyət göstərən adamlar parlamentə deputat seçildiklərinə görə və Azərbaycan Kommunist Partiyası çox şeylərdə günahkar olduğuna görə mən hesab edirəm ki, Azərbaycan Respublikasının parlamenti buraxılmalıdır və yenidən seçkilər aparılmalıdır. Mən belə kəskin çıxış edərkən düşünürəm ki, indi mənim çıxışımdan sonra xüsusi hazırlanmış adamlar çıxıb mənim əleyhimə sözlər deyəcəklər. Mən bu sözlərə öyrənmişəm. Ona görə də heç narahat olmayın. Mən öz vicdanım qarşısında cavabdeh olaraq bu gün bu çıxışı edirəm.

**29 avqust 1991-ci il**

**Əliyev Heydər. Şəxsi mövqe. – B. - 1994. - S. 23-27.**